

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

11 sentyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 35 (3747)

# Qətiyyətli liderin yaratdığı reallıqlar

**Tarixi ədalətin bərqərar olunması üçün Azərbaycan XXI əsrə Vətən müharibəsindəki qalibiyyəti ilə öz möhürünü vurdu. Bütün cəbhələrdə qazanılan uğurun təməlində isə dövlət-vətəndaş həmrəyliyi dururdu. Bölgədə yeni reallıqlar yaradan, ötən müddət ərzində dünyanın ən böyük dövlətlərinin tərəfdaşına çevrilən ölkəmiz bir çox beynəlxalq tədbirlərə evsahibliyi etməklə dünyanın ən təhlükəsiz ölkəsi olduğunu da sübut etdi.**



Bu gün əldə etdiyimiz iqtisadi, siyasi uğurlar dünyanın gündəmindədir. Belə ki, son iki ay Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki güclü mövqelərə malik olduğunu və Prezident İlham Əliyevin dünyanın nüfuzlu siyasi liderləri ilə bir cərgədə dayandığını göstərən hadisələrlə zəngindir. Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə avqustun 7-8-də Vaşinqtona, Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun sonu,

> *“Prezident İlham Əliyevin uğurlu siyasəti Azərbaycanı regionun liderinə çevirib”*

sentyabrın əvvəllərində Çinə işgüzar səfərləri bu baxımdan əsl həqiqətləri bir daha nümayiş etdirdi. Dövlətlərin və onlara rəhbərlik edən şəxslərin nüfuzu yürütdükləri siyasətin məzmunu ilə ölçülür. Bu siyasət qətiyyətli olanda həm dövlət, həm də onun lideri beynəlxalq səviyyədə ehtiramla, hörmətlə qarşılanır. Prezident İlham Əliyevin avqust ayında ABŞ-a etdiyi səfər də bunu təsdiq etdi. Bu səfər proqramının hər bir detalı - qarşılanma, olduqca səmimi atmosferdə aparılan danışıqlar, dövlətimizin başçısına Ağ Evin rəmzi açarının təqdim olunması Donald Trampın Prezident İlham

## Diplomatik uğurlar ölkəmizi söz sahibi edib

Əliyevə və Azərbaycana olan yüksək ehtiramının nümunəsinə çevrildi. Bütün dövlət və hökumət başçıları Ağ Evdə belə səviyyədə qarşılanmır. Və ya ABŞ rəhbərliyi heç də hamıya bu cür səmimi münasibət göstərmir. Prezident D. Tramp özü də qeyd etdi ki, Ağ Evin rəmzi açarını nadir hallarda təqdim edir.

Xatırladaq ABŞ-ın əvvəlki rəhbərliyinin dönəmində Vaşinqtonun Azərbaycana olan münasibəti fərqli idi. Bayden hakimiyyətinin ölkəmizə qarşı qərəzli davranmasının kökündə Azərbaycanın yürütdüyü qətiyyətli siyasət, öz milli maraq və mənafelərini cəsarətlə təmin etməsi dayanırdı. Bayden-Blinken cütlüyünün işi-gücü sanki yalnız Azərbaycanı hədəfə almaq idi. Onlar ölkəmizin regionda yaratdığı reallıqlarla barışmaq istəmir, respublikamızın öz ərazi bütövlüyünü bərpa etməsinə qarşı çıxırdılar. Xatırladaq ki, Baydenin prezidentliyi zamanı Azərbaycanın rəsmi nümayəndə heyətlərinin ABŞ-a səfərlərinə məhdudiyyət tətbiq edilmişdi. Bundan başqa, ABŞ siyasiləri ölkəmizə qarşı müxtəlif sanksiyaların tətbiq edilməsinə dair təkliflər irəli sürürdülər. Azərbaycanın guya Ermənistana hücum edəcəyi ilə bağlı şayiələri yayanlardan biri də elə Bayden administrasiyası idi.

ABŞ-ın yeni administrasiyası Bayden-Blinken qaragüruhunun yürütdüyü siyasətdən imtina edib. Azərbaycan-ABŞ münasibətlərində ötən aydan etibarən baş verən keyfiyyət dəyişiklikləri bunun bariz nümunələrindən biridir. Bu sırada ən mühüm məqamlardan biri odur ki, D.Tramp Azərbaycan Prezidenti İlham Əliyevin siyasi liderlik keyfiyyətlərini yüksək qiymətləndirir. Avqust ayının sonlarında ABŞ Prezidenti Donald Trampın şəxsi imzası ilə Prezident İlham Əliyevə hədiyyə etdiyi tarixi fotoşəkillər və həmin fotoların üzərində yazdığı, "İlham, siz böyük lidersiniz!" və digər xoş sözlər bir daha dövlətimizin başçısının hörmətlə qarşılanan lider olmasının və yüksək beynəlxalq nüfuzunun təcəssümünə çevrildi. Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun sonu, sentyabrın əvvəllərində Çinə işgüzar səfəri, keçirdiyi görüşlər, "ŞƏT plyus" formatında görüşdə çıxışı da bir daha göstərdi ki, cənab İlham Əliyev beynəlxalq miqyasda böyük ehtiramla qarşılanan siyasi lider, Azərbaycan isə dünyanın yüksək nüfuza malik dövlətlərindəndir. Azərbaycan-Çin münasibətlərinin bu gün yüksək səviyyəyə çatmasında iki dövlətin liderləri arasındakı dostluq münasibətlərinin xüsusi rolu var.

# Dünya mediasının diqqətindəyik

## Azərbaycanın beynəlxalq nüfuzu onu etibarlı tərəfdaşa çevirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çinə bir il ərzində ikinci dəfə rəsmi səfəri iki ölkə münasibətlərində strateji mərhələnin başlanğıcını göstərir. Bu səfər sadəcə diplomatik protokol deyil, həm də geosiyasi və iqtisadi baxımdan mühüm hadisədir. Çin kimi qlobal gücün lideri ilə ardıcıl görüşlər Azərbaycanın Asiya istiqamətində artan marağının və Pekinlə əlaqələrin dərinləşdiyinin təsdiqidir. Bu səfər Azərbaycanın çoxvektorlu siyasətinin bariz nümunəsidir. Bakı Qərb, Rusiya və Çinlə paralel və balanslı əməkdaşlıq qurmaqla öz müstəqil diplomatik xəttini qoruyur. Bu isə Azərbaycanın regional sabitlik və qlobal əməkdaşlıqda etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir.

Çin beynəlxalq arenada Azərbaycanı hər zaman dəstəkləyib. Qarabağ probleminin həlli istqamətində Çinin baxışı birmənalı olub: münaqişə Azərbaycanın ərazi bütövlüyünün tanınması və bərpası ilə öz həllini tapmalıdır.

İki ölkə arasındakı strateji tərəfdaşlıq Çində imzalanan sənədlərdə də öz əksini tapdı.

Qeyd edək ki, yapon işğalçılarına qarşı Müqavimət müharibəsi ilə Ümumdünya Faşizm üzərində qələbənin 80 illiyinə həsr olunmuş yubiley mərasimində və möhtəşəm hərbi parada Prezident İlham Əliyevin də qatılması nüfuzlu informasiya agentlikləri tərəfindən diqqətlə işıqlandırılıb. Dünya mediası bu səfəri həm qlobal geosiyasi kontekstdə, həm də Azərbaycanın müstəqil xarici siyasət kursunun nümayişi kimi qiymətləndirib. “Reuters” və “Associated Press” yazır ki, Qərb dövlətlərinin çoxu tədbirdə iştirakdan imtina etdiyi halda, Azərbaycan liderinin Çində dövlət başçıları ilə birgə tribunada yer alması, “Qlobal Cənub” ölkələrinin həmrəyliyinin bariz nümunəsi kimi təqdim olunub.

“The Guardian” qəzetinin məlumatına görə Əliyevin Pekində iştirakı Azərbaycanın balanslı və çoxvektorlu siyasətinin göstəricisidir. Analitiklər qeyd edirlər ki, Bakı həm Qərblə əməkdaşlığı davam etdirir, həm də Çin və Rusiya kimi böyük dövlətlərlə münasibətləri inkişaf etdirərək beynəlxalq aləmdə mövqeyini möhkəmləndirir.

Media orqanları Ermənistan Baş naziri Nikol Paşinyanın da həmin tədbirdə iştirakını regionda sülh və əməkdaşlıq üçün yeni imkanların formalaşmasına töhfə verən diplomatik addım kimi qiymətləndirir.

“Associated Press”in qənaətincə Prezident İlham Əliyevin hərbi parad zamanı beynəlxalq liderlərlə eyni sırada yer alması Azərbaycanın artan nüfuzunu nümayiş etdirir. Dünya mediası yekdilliklə vurğulayır ki, Prezident İlham Əliyevin sentyabrda Çinə səfəri Azərbaycanın müstəqil xarici siyasət kursunun bariz nümunəsi olmaqla yanaşı, ölkənin həm regional, həm də qlobal miqyasda artan nüfuzunun təzahürüdür. Bu səfər Azərbaycanın beynəlxalq diplomatiyada etibarlı tərəfdaş və mühüm oyunçu kimi rolunu daha da möhkəmləndirib.

# Prezidentdən təbrik

## Qarşılıqlı anlaşma təqdir olunub

Prezident İlham Əliyev Tacikistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona və Şimali Makedoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Şimali Makedoniya Respublikasının Prezidenti Zati-aliləri xanım Qordana Silyanovska-Davkovaya öz adından və Azərbaycan xalqı adından təbrik məktubu ünvanlayıb.

Məktublarda sağlam təməllər üzərində qurulmuş münasibətlərin, səmərəli birgə fəaliyyətin ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət etdiyi vurğulanıb.

# Prezident açılış edib

## Yaradıcı insanların fəaliyyətinə dövlət qayğısı artır

Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Yaradıcılıq Evində yaradılmış şərait barədə məlumat verib.

Bildirilib ki, Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən kompleksin ərazisi 3 hektara yaxındır. Burada “suite” və “standart” tipli olmaqla ümumilikdə 43 otaq var. Kompleksdəki 174 yerlik konfrans zalında müxtəlif tədbirlərin, o cümlədən yaradıcılıq gecələrinin, yazıçılarla görüşlərin və digər mədəni tədbirlərin keçirilməsi mümkün olacaq. Burada kinoteatr, kitabxana, qapalı, həmçinin açıq havada restoranlar, kafe, fitnes zonası da fəaliyyət göstərəcək. Eyni zamanda, futbol, tennis və uşaq oyun meydançaları da istirahət edənlərin ixtiyarına veriləcək.

# Qafqazda yeni mərhələ

## Region üçün önəmli hadisə

“Vaşinqtonda avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin paraflanması Qafqaz regionu üçün onilliklər boyu davam edən düşmənçilik və qanlı münaqişələrdən sonra tarixi bir mərhələdir”. Bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "I24 News" telekanalına müsahibəsində deyib. O bildirib ki, bu saziş ili ölkə arasındakı münasibətlərin normallaşmasında çox önəmli bir irəliləyişdir: "Hazırda bu irəliləyiş sadəcə sazişin paraflanmasıdır, yəni yekun imzalanma deyil. Daha irəli getmək üçün Ermənistanın konkret addımlar atması, xüsusən də Azərbaycan əleyhinə ərazi iddialarını aradan qaldırmaq məqsədilə Konstitusiyasını dəyişdirməsi lazımdır".

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev sentyabrın 8-də İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev sentyabrın 8-də “Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağı haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Döyüş Bayrağının təsviri”nin təsdiq edilməsi barədə Fərman imzalayıb.*

*Prezident İlham Əliyev sentyabrın 5-də Göygöl rayonunun Göygöl–Topalhəsənli–Şəhriyar (8 km)–Zurnabad–Gəncə–Mollacəlilli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

Nazir vətəndaş qəbulu keçirib...............2
Aktual problem....................................3
Andı Vətən olanlar…...............................3
Tarixin ilk qanunları...............................4

# Respublika Xəbərləri

### Beyin Mərkəzləri Bakıda toplanıb

Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Beyin Mərkəzləri Forumunun 13-cü iclası keçirilir. "İnkişaf və Təhlükəsizliyin Rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" mövzusuna həsr olunmuş tədbirə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutu təşkilatçılıq edir.

### Xanyurduna köç yola salınıb

Növbəti köç karvanı Xocalı rayonunun Xanyurdu kəndinə yola salınıb. Böyük Qayıdış proqramına uyğun olaraq, Xanyurdu kəndinə bu mərhələdə 15 ailə (46 nəfər) köçürülüb. Köçürülən ailələr bu günə kimi Goranboy, Sumqayıt, Bərdə, Abşeron, Bakı şəhər və rayonlarında əsasən yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlərdir. Bu köç mərhələsi də nəzərə alınmaqla Xocalı rayonunun Xanyurdu kəndinə isə cəmi 69 ailə (237 nəfər) köçürülüb.

### Ərazilər minalardan təmizlənir

Azad olunan ərazilərdə sentyabrın 1-dən 7-nə qədər 33 tank əleyhinə mina, 165 piyada əleyhinə mina, 726 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib. Bu barədə Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı həftəlik məlumatında deyilir. Məlumata əsasən, 1304.6 hektar ərazi minalardan təmizlənib. Qeyd edək ki, minatəmizləmə əməliyyatlarını ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN) və Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Şuşa, Xocavənd, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan ərazilərində, o cümlədən Qazax rayonunun işğaldan azad edilmiş Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılı kəndlərində həyata keçirib.

### Onlar Vəngliyə qayıdırlar

Ağdərə rayonunun Vəngli kəndinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə 29 ailə (105 nəfər) Vəngli kəndinə köçürülür. Köçürülən ailələr Bakı, Kürdəmir, Ağdam, Yevlax, İmişli, Ağsu, Şamaxı, Goranboy, Qax, Bərdə, Mingəçevirdə əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu köç də nəzərə alınmaqla, Ağdərə rayonunun Vəngli kəndinə cəmi 51 ailə (188 nəfər) köçürülüb.

### Süni İntellekt Akademiyası yaradılıb

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat yayıb. Tədbirdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər. Qeyd edək ki, "AI Academy" "AZCON Holding"in dəstəyi ilə fəaliyyət göstərəcək tədris mərkəzidir. Akademiya "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"na əsasən yaradılıb. Süni İntellekt Akademiyasının əsas məqsədi süni intellekt sahəsində mütəxəssislər hazırlamaq və ölkədə rəqəmsal transformasiyanı sürətləndirməkdir. Akademiya həmçinin gələcəkdə Azərbaycanı regionda süni intellekt təhsili və innovativ layihələrin tətbiqi üzrə aparıcı mərkəzə çevirməyi hədəfləyir.

### Turist səfərləri artıb

Bu ilin yay aylarında "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-ə məxsus qatarlar ilə 11 minə yaxın turist səfər edib. Bu barədə ADY-dən bildirilib. Məlumata görə, bu yay səfər etmiş xarici sərnişinlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 25% çox olub.

### Bakı metrosunda yenilik

Bakı Metropolitenində üztanıma texnologiyası ilə gedişhaqqı ödəniş sisteminin tətbiqinə dair danışıqlar aparılır. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "AzInTelecom" MMC-nin kommersiya departamentinin direktoru Fərrux Fərəcullayev şirkətin media nümayəndələri üçün keçirdiyi təlimdə bildirib. Onun sözlərinə görə, hazırda "Azərbaycan Dəmir Yolları" QSC ilə birgə üztanıma texnologiyasından istifadə edərək ödəniş sisteminin inteqrasiyasına başlanılıb.

# Nazir vətəndaş qəbulu keçirib

## Vətən müharibəsi iştirakçısı olan 16 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 3-4-də Naftalan Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Naftalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra şəhər polis şöbəsinin inzibati binasında Gəncə, Naftalan, Goranboy, Samux, Göygöl, Daşkəsən, Xocalı, Kəlbəcər, eləcə də digər şəhər və rayonlardan gələn 172 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə ciddi tapşırıqlar verib. Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışına da keçirib.

Vətən müharibəsinin 16 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 121 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# DİN-də qəbul

## Nazir Vilayət Eyvazov Qazaxıstan DİN-in nümayəndə heyəti ilə görüşüb



Qazaxıstan Respublikası daxili işlər nazirinin müavini - Milli Qvardiyanın Baş Komandanı, general-mayor Ansaqan Baltabekovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan nazir Vilayət Eyvazov hər iki dövlət başçılarının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq Azərbaycan və Qazaxıstan Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın və səmərəli işbirliyinin daha da dərinləşdiyini bildirib. O, ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılan normativ-hüquqi bazanın xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

General-mayor Ansaqan Baltabekov səmimi görüşə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, təmsil etdiyi qurumun əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və bu istiqamətdə səylərini əsirgəməyəcəklərini qeyd edib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qazaxıstanlı qonaqlar Daxili Qoşunlar və polis orqanlarının fəaliyyəti ilə tanış olublar.

# Məmnunluq hissi ilə...

## Polis inam və güvən ünvanıdır

Ağsu rayon sakini Sehun Əlifov müraciətinin müsbət həll olunmasına və dəymiş maddi ziyanın ödətdirilməsinə görə Ağsu RPŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Rauf Ağayev Daxili İşlər Nazirliyinin "İnstagram" səhifəsinə təşəkkür mesajı yazaraq üzləşdiyi oğurluq faktı ilə bağlı etdiyi müraciətə operativ reaksiya verilməsinə və müsbət həll olunmasına görə başda DİN rəhbərliyi olmaqla, Saatlı RPŞ-nin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edir.

Vətəndaş Azər Qasımov Daxili İşlər Nazirliyinə təşəkkür məktubu ünvanlayıb. O, rayon ərazisində ictimai asayişin və ictimai təhlükəsizliyin etibarlı təmin olunmasına, sosial neqativ halların aradan qaldırılmasına, cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizə tədbirlərinə görə Qaradağ Rayon Polis İdarəsinin əməkdaşlarına özü və digər sakinlər adından minnətdarlığını bildirir, xidməti vəzifələrini layiqincə yerinə yetirən Azərbaycan polisinə uğurlar arzulayır.

Vətəndaş Nigar Həşimzadə DİN-in "Instagram" səhifəsinə mesajında üzləşdiyi problemlə bağlı müraciət etdiyini, polis əməkdaşlarının müraciətə operativ şəkildə baxdığını yazır. O, müraciətinə həssas yanaşılmasına, göstərilən diqqətə və görülmüş tədbirlərlə probleminin qısa müddətdə aradan qaldırılmasına görə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş İsmayıl Hüseynov DİN-in "Instagram" səhifəsinə mesajında humanistliyə, vətəndaşlara göstərilən diqqət və qayğıya görə Pirallahı Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Etibar Hadıyev DİN-in "Instagram" səhifəsinə mesajında polisin vətəndaşların güvən yeri olduğunu qeyd edir, göstərilən diqqət və qayğıya, humanizmə, obyektivliyə, vətəndaş məmnunluğu üçün yaradılan şəraitə görə Pirallahı Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

# Xidmət məsuliyyət, şəffaflıq reallıqdır

## Etimad və inam sıralarımıza qoşulan gənclərə dəstəyin ifadəsidir

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 10-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**



Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 180 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Andı Vətən olanlar…

## Onlar sabitlik adasının keşikçiləridir

Onların həyat hekayələri ilə tanış olduqdan sonra bir daha əmin oldum ki, başlama səbəbləri müxtəlif olsa da, müharibə heç vaxt arzulanmır. Müharibə insan talelərinə acımır. Məsələn, boş qalan yelləncəkdə körpə bir uşağın yerinə top mərmisini heç kim təsəvvür etmək istəməz. Güllələrin mələkləri belə perik saldığı göylərdə quşlar heç vaxt uçmaz. Əsgər çəkmələri torpağı sığallamaz. Halbuki o çəkmələrin sahibi son nəfəsində belə saçlarında ana sığalını hiss etmək istəyər. Bu illər ərzində ən səmimi müsahiblərim də onlar oldular. Yaşadıqlarını elə danışdılar ki, özümü onlarla eyni səngərdə döyüşürmüş kimi hiss etdim. Ələləri də oldu ki, tək bircə cümlə ilə kifayətləndi: "Danışa bilmirəm, şükür qələbə qazandıq!"...

Vətəni atası, anası bilən qəhrəmanlarım onun hüzurunda həmişə fərəqətdədirlər. Hər əmrini sözsüz icra etməyə hazırdılar, sonu ölüm olsa belə.

Dünən Vətən çağıranda əsgər şineli geyinib səfərbər olunan oğullar bu gün sıramızda polis mundirində bizimlə çiyin-çiyinədir. Müzəffər Ali Baş Komandanın tapşırığına uyğun olaraq paytaxtda və yerlərdə keçirilən vətəndaş qəbullarında gəncliyi odlardan keçənlərə Daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun sıramıza gəlin çağırışı öz bəhrəsini verir.

Gənclərə öz bacarıqlarını inkişaf etdirmək, ən ümdəsi əsl vətəndaş kimi dövlətə, dövlətçi-





liyə xidmət etmək üçün yaradılan şəraitdən bu günə kimi yüzlərlə gənc yararlanıb. Onlar bu gün sıramızda Azərbaycan Polisi adı ilə qürur duyub, inamla addımlayırlar.

Onlardan biri də Ağsu RPŞ-nin Post-Patrul Xidməti Bölüyünün əməkdaşı polis serjantı Fərid Qurbanovdur. O, 10.07.2000-ci ildə İsmayıllı rayonunun Qubaxəlilli kəndində doğulub. 2006-cı ildə şəhid Sahib Həsənov adına Qubaxəlilli tam orta məktəbinə qəbul olunub, 2017-ci ildə bitirib. 2018-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci ildə həqiqi hərbi xidmətdən tərxis olunduqdan sonra könüllü olaraq müddətdən artıq hərbi xidmət keçmək üçün ordu sıralarında xidmətini davam etdirib.

Vətən müharibəsi başlayanda sevinib. Adını eşidib, özünü görmədiyi torpaqları azad etmək üçün silaha sarılıb. Füzuli, Cəbrayıl, Laçın və Murovdağ istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Deyir ki, Vətən müharibəsində və müharibə bitdikdən sonra düşməndən təmizlənmiş, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Polisinin, DİN-in hərbi qulluqçularının fədakarlığının, ən çətin şəraitdə hansı çətinliklərin öhdəsindən gəldiyinin şahidi olub. 2023-cü ildə hərbi xidmətdən tərxis olunub. Elə həmin il də daxili işlər orqanlarında xidmət etmək üçün DİN-ə müraciət edib. Müraciətinə həssaslıqla yanaşılıb. Dünən Azərbaycan əsgəri idi, bu gün Azərbaycan Polisidir.

"Düşməndən azad etmək üçün döyüşdüyüm Vətən torpaqlarına bu gün Azərbaycan Polisi kimi ayaq basanda kövrəlirəm. Gözlərimin önündən mənimlə bir səngərdə döyüşən və şəhidlik zirvəsinə ucalan döyüşçü yoldaşlarım keçir. Bilirəm ki, onların ruhu şaddır. Bilirəm ki, torpaqlarımızın işğaldan azad olunmağı onların doğmaları üçün ən böyük təskinlikdir"... O, səngərdədir, asayişin, sabitliyin səngərində. Əmin-amanlığı qorumaq kimi məsuliyyətli bir görəvdə dünən olduğu kimi bu gün də ayıq-sayıqdır. Etimada layiq xidməti vətəndaş məmnunluğu ilə də müşahidə olunur. Barəsində şöbə rəisi polis polkovniki Oruc Əmiraslanov bunları dedi: "Polis serjantı Fərid Qurbanov çox çalışqan, səmimi, verilən tapşırıqların öhdəsindən layiqincə gələn bir əməkdaşdır".

Həmkarımız Müzəffər Ali Baş Komandanın əmri ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Ötən müddət ərzində daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun 02.12.2024-cü il tarixli əmri ilə "Əla xidmətlərə görə" döş nişanı ilə təltif edilib.

***Hafiz Təmirov***
***polis polkovniki***

# Aktual problem

## Məsələ gündəmin əsas mövzusuna çevrilib

Yeni tədris ilinin başlamasına sayılı günlər qaldığını nəzərə alan və məktəblərin, tədris müəssisələrinin ətrafında yol təhlükəsizliyinə xüsusi diqqət ayıran Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən mühüm addım atılıb. Belə ki, 5 sentyabr – 5 oktyabr "Diqqət, uşaqlar!" şüarı altında profilaktik ay elan edilib.

Sözügedən müddətdə keçirilən tədbirin əsas məqsədi bütün yol hərəkəti iştirakçılarının diqqət və məsuliyyətini artırmaq, xüsusilə uşaqların və yeniyetmələrin həyatının qorunmasına nail olmaq, onların yol qəzalarının qurbanına çevrilməsinin qarşısını almaqdır.

Valideynlərə və böyüklərə ünvanlanan müraciətdə uşaqların təhlükəsizliyinin ilk növbədə onların məsuliyyətli davranışından asılı olduğu vurğulanır: "Təhsil müəssisələrinin, uşaq bağçalarının və yaşayış məhəllələrinin yaxınlığında hərəkət edərkən sürəti minimuma endirin; - Piyadalara, xüsusilə də uşaqlara keçidlərdə mütləq yol verin;- Yol nişanlarına, işıqforların siqnallarına və nişanlanma xətlərinə ciddi əməl edin; - Manevr zamanı daha diqqətli olun, dayanma-durma qaydalarını pozmayın"...

Məsələyə münasibət bildirən ekspertlər bildiriblər ki, məktəb qarşısında avtomobillərin yüksək sürətlə hərəkət etməsi piyadaların – xüsusən də şagirdlərin həyatını riskə atır. Mövcud yol nişanları və sürət həddi tələblərinə baxmayaraq, bəzi sürücülərin bu qaydalara laqeyd yanaşması vəziyyəti daha da təhlükəli edir. Xarici ölkələrdə məktəb və universitet yollarında xüsusi sürət azaldıcı maneələrin tətbiqi geniş yayılmış olsa da, ölkəmizdə bu cür tədbirlər hələ ki, çox məhdud şəkildə həyata keçirilir. Təhsil müəssisələrinin qarşısında təhlükəsizliyin artırılması üçün əlavə addımların atılması zərurəti gündəmdə qalır.

Nəqliyyat eksperti Elməddin Muradlı deyir ki, ölkəmizdə bu problemin həlli üçün uyğun nümunələr var. Lakin bu nümunələri kütləviləşdirmək ölkə yolları üçün daha effektli ola bilər:

"Məktəblərin ətrafında yol hərəkətinin düzgün tənzimlənməsinə ciddi ehtiyac var. Çünki baş verən yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən biri yüksək sürət və təhlükəli manevrlərdir. Bu problemi aradan qaldırmağın ən effektiv yollarından biri süni maneələrin, yeni sürücünü məcbur edən vasitələrin tətbiqidir. Məsələn, Bakı şəhərində Bəsti Bağırova küçəsində quraşdırılmış xüsusi çıxıntılar sürücüləri avtomatik olaraq sürəti azaltmağa məcbur edir. Bu təcrübəyə dünyanın müxtəlif ölkələrində də rast gəlinir. Mənzərəni Qarabağa səfər zamanı Xankəndidə də müşahidə etmək mümkündür. Bu isə sübut edir ki, tətbiq olunan mexanizm qanunda əksini tapmasa belə, real həyatda öz təsirini göstərir".

Ekspert onu da qeyd edib ki, Türkiyə, Rusiya və Qazaxıstan kimi ölkələrin qanunvericiliyində süni maneələrin tətbiqi ayrıca qeyd olunur:

"Azərbaycanda isə hazırda əsasən yol nişanları və kameralarla sürətə nəzarət edilir. Amma təcrübə göstərir ki, bu üsullar hər zaman kifayət qədər effektiv olmur. Sürücü nişanda sürət həddini görsə də, qaydanı pozaraq yüksək sürətlə hərəkət edə bilər. Süni maneələr isə sürücünü məcbur edir ki, avtomobilinə ziyan dəyməsin deyə sürəti azaltsın. Bu baxımdan xüsusilə məktəblərin və universitetlərin ətrafında bu vasitələrin tətbiqi vacibdir. Beləliklə, həm şagirdlərin, həm də tələbələrin təhlükəsizliyi üçün real addım atılmış olar".

***"Polis"***

# Baş İdarə əməliyyat keçirib

## Silah və külli miqdarda narkotik götürülüb

DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi vətəndaşların qanuni mənafelərinin qorunması, paytaxt və bölgələrdə kriminogen duruma nəzarət, o cümlədən odlu silah-sursat əldə edib saxlama, habelə narkotik vasitə və psixotrop maddələrin qeyri-leqal dövriyyəsinin qarşısının alınması istiqamətində əməliyyatlar keçirib. Tədbirlər zamanı cinayət törətməyə meyilli, o cümlədən kriminal həyat tərzinin təbliği ilə məşğul olan, ayrı-ayrı şəxslərdən hədə-qorxu ilə pul tələb edən və odlu silah-sursat saxlayan 20-dən artıq şəxs saxlanılıb. Onlardan xeyli sayda "Kalaşnikov" avtomatı, "Makarov" və digər markadan olan tapançalar, habelə müxtəlif çaplı patronlar aşkarlanıb. Həmçinin, Baş İdarə əməkdaşları tərəfindən vətəndaşların narkotiklərin ziyanlı nəticələrindən qorunması, həmin vasitələrin daşınmasının qarşısının alınması, bu işin sərhədyanı bölgələrdə daha da gücləndirilməsi və xüsusən paytaxt ərazisində satışının qarşısının alınması məqsədi ilə də əməliyyatlar keçirilib. Sonuncu əməliyyatlar zamanı ümumilikdə 142 kiloqram müxtəlif adda narkotik vasitə qeyri-leqal dövriyyədən çıxarılıb, narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan 3 mütəşəkkil dəstənin üzvləri, habelə qeyd edilən cinayətlərdə təqsirli bilinən 7 şəxs saxlanılıb. Narkotiklərlə əlaqəli başlanan 10 cinayət işi üzrə zəruri istintaq hərəkətləri aparılır. Baş İdarənin əməkdaşları tərəfindən qeyd edilən hüquqazidd əməllərə yol verən digər şəxslərin də dairəsinin müəyyən edilməsi istiqamətində əməliyyatlar davam etdirilir.

# Keçmiş məhkum saxlanıldı

## Narkotiklərin satışını təşkil edirmiş

Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən əvvəllər məhkum olunmuş Şahin Rüstəmli saxlanılıb. Şirvan regional qrupumuzdan verilən məlumata görə, ondan ümumi çəkisi 2 kiloqram 500 qram heroin və marixuana aşkarlanıb. Ş.Rüstəmli narkotik vasitələri sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşından satmaq məqsədi ilə əldə etdiyini bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Yolu məhbəsdən düşəcək

## Quldurluqda və soyğunçuluqda şübhəli bilinir

Abşeron rayonunda quldurluq cinayəti qeydə alınıb. Ceyranbatan qəsəbəsində naməlum şəxs gecə saatlarında zərərçəkəni kəsici alətlə hədələyərək onun içərisində mobil telefon və 270 manat olan çantasını ələ keçirib. Polis əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri ilə cinayət əməlini törətməkdə şübhəli bilinən 21 yaşlı Z.Camalov saxlanılıb. Araşdırmalar zamanı həmin şəxsin bir neçə gün əvvəl Binəqədi rayonunda vətəndaşların birinin içərisində qızıl-zinət əşyası, mobil telefon və pul olan çantasını soyğunçuluq yolu ilə taladığı müəyyən edilib.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Oğrular ələ keçdi

## Əməllərinə hüquqi qiymət veriləcək

Paytaxtın Sabunçu rayonunda talama cinayətləri qeydə alınıb. Sabunçu qəsəbə sakininə məxsus evdən 3780 manat dəyərində təmir-tikinti alətləri, Maştağa qəsəbəsində isə bir avtomobildən 300 manat pul oğurlanıb. Polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri ilə qeyd olunan əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 49 yaşlı R.Nağıyev və 38 yaşlı Ə.Mürsəlbəyov saxlanılıblar.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Narkokuryerlik edirdi

## İran vətəndaşının "toruna" düşüb

Səbail Rayon Polis İdarəsinin 8-ci Polis Bölməsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışına qarşı keçirilən əməliyyat zamanı 32 yaşlı əvvəllər məhkum olunmuş Kənan Həsənov saxlanılıb. Ondan 1 kiloqramdan artıq yüksək təsiredici xassəyə malik narkotik vasitə olan heroin aşkarlanıb. Saxlanılan şəxs ifadəsində narkotik vasitələri maddi gəlir qazanmaq niyyəti ilə sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşından əldə etdiyini bildirib. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

# Müttəfiqlər ondan niyə qorxurdu?

## Fransada sabotajlara rəhbərlik edərək müharibənin gedişatını dəyişmişdi

### Uşaqlığı və faciəli qəza

Virciniya Holl 1906-cı ildə ABŞ-ın Baltimor şəhərində imkanlı və intellektual ailədə dünyaya gəlmişdi. Ailəsi onun təhsilinə və fərdi inkişafına böyük önəm verirdi. O, hələ uşaqlıq illərindən xarici dillərə və fərqli mədəniyyətlərə maraq göstərir, diplomatik sahədə çalışmaq arzusuyla yaşayırdı. Fransada, Avstriyada və Almaniyada təhsil almışdı. Fransız, alman, italyan və rus dilində mükəmməl səviyyədə bilirdi.

1933-cü ildə Türkiyədə dostları ilə ov zamanı baş verən təsadüfi bir qəza onun həyatını kökündən dəyişdi. Tikanlı məftillərlə hasarlanmış bir sahəni keçərkən tüfəngi təsadüfən açıldı və güllə sol ayağını dizdən aşağı ciddi şəkildə yaraladı. Ağır zədələnmiş ayağı amputasiya olundu və yerinə "Katbert" adlandırdığı taxta protez taxıldı. Hər kəs onun gələcəyinin, karyerasının sona çatacağını düşünürdü, lakin Virciniya bunun əksini sübut etdi.

### Uğurlu yol axtarışında

Təhsilini bitirdikdən sonra Virciniya Holl böyük həvəslə ABŞ Xarici Xidmətinə müraciət etdi. Lakin o dövr üçün qadınların bu sahədə xidmət etməsi qeyri-adi sayılırdı və müraciəti məhz qadın olduğuna görə rədd edildi. Lakin o, ruhdan düşmədi, ABŞ-ın Polşada və Türkiyədəki səfirliklərində katibə kimi çalışdı. Faciəli ov qəzasından sonra isə ikinci dəfə müraciət etsə də, bu dəfə də əlil olduğu üçün qəbul edilmədi.

Aldığı rədd cavabları onu qarşısına qoyduğu məqsəd üçün daha böyük əzmlə çalışmağa sövq etdi. 1940-cı ildə almanların Fransaya hücumu ərəfəsində Parisə qayıtdı və könüllü olaraq təcili yardım sürücüsü kimi Fransa ordusuna qoşuldu. O, müharibənin dəhşətlərini ön cəbhədə yaşadı. Daha sonra İngiltərəyə keçərək, burada Uinston Çörçilin göstərişi ilə yaradılan Xüsusi Əməliyyatlar İdarəsinə (SOE) qoşuldu və casusluq təlimləri aldı.



### Fransadakı gizli missiya

1941-ci ildə Virciniya Holl SOE tərəfindən Fransaya göndərilən ilk qadın resident kimi fəaliyyətə başladı. O, Fransada "New York Post" qəzetinin müxbiri kimi fəaliyyət göstərən amerikalı jurnalist qiyafəsində gizlənirdi. Əslində isə onun əsas missiyası almanların hərbi mövqeləri, hərəkətləri, nəqliyyat yolları və planları haqqında Londondakı mərkəzə məlumat ötürmək, yerli müqavimət hərəkatını təşkilatlandırmaq və idarə etmək idi.

Onun işləmə üsulu olduqca yaradıcı və ehtiyatlı idi. Radiodan kodlaşdırılmış mesajlar alır, pəncərəyə qoyduğu gül, ya da kafenin altlığına gizlədilən qeydlərlə əlaqə saxlayırdı. Onun fəaliyyəti o qədər təsirli idi ki, nasistlər arasında "limping lady" (axsaq qadın) kimi tanınır, Gestapo isə onu "ən təhlükəli casus" elan etmişdi. Başına mükafat qoyulsa da, lakin Holl heç vaxt ələ keçmədi.

### Axsaq qadın, güclü döyüşçü

Virciniya Hollun fəaliyyəti nasistlər üçün elə bir təhlükəli həddə çatmışdı ki, Gestapo onun axtarışı üçün bütün resursları səfərbər etmişdi. Fransada vəziyyət təhlükəli hal alanda Holl həyatını riskə ataraq Pireney dağlarını keçərək İspaniyaya qaçdı. Sərt hava, uzun yol və "Katbert" adlandırdığı protezin ağrıları ona mane ola bilmədi.

İngiltərəyə qayıtdıqdan sonra o, bu dəfə ABŞ-ın Strateji Xidmətlər İdarəsinə (OSS) qoşuldu və 1944-cü ildə D-Day əməliyyatından əvvəl yenidən Fransaya göndərildi. Bu dəfə kəndli qadın qiyafəsində fəaliyyət göstərirdi. O, müxtəlif sabotaj əməliyyatları təşkil etdi: alman qatarlarını relsdən çıxartdı, körpüləri partlatdı, alman zabitlərini öldürdü və yüzlərlə əsgərin əsir alınmasında iştirak etdi.

### Səssiz xidmət...

Müharibə başa çatdıqdan sonra Virciniya Holl ABŞ-ın ən yüksək hərbi mükafatlarından biri olan "Distinguished Service Cross" (Fərqlənmə Xidməti Xaçı) ilə təltif edildi. Bu mükafata layiq görülən yeganə qadın idi. Lakin o, bütün bu şücaətlərə baxmayaraq, heç vaxt özü haqqında danışmadı, təvazökarlığını qorudu.

O, müharibədən sonra ABŞ-ın yeni yaradılmış Mərkəzi Kəşfiyyat İdarəsində (CIA) uzun illər fəaliyyətini davam etdirdi və 60 yaşında təqaüdə çıxdı. Ömrünün sonunadək sakit həyat sürdü və ailəsinin belə onun fəaliyyəti barədə çox az məlumatı oldu.

Virciniya Holl 1982-ci ildə vəfat etdi. Onun həyatı və fəaliyyəti sonradan bir çox kitab və sənədli filmlərə mövzu oldu. Holl təkcə müharibə qəhrəmanı deyil, həm də qadınların gücünü, qətiyyətini və imkanlarını göstərən simvolik fiqura çevrildi. O, əlilliyin və cinsiyyətin heç bir halda insanın əzmini və vətənpərvərliyini üstələyə bilməyəcəyini sübut etdi.

*Aytən Tahirova*
*polis kapitanı*

# Bakı bizim Qəhrəmanımızdır

## Azərbaycan nefti müharibənin taleyində mühüm rol oynayıb

Məlum və məlum olmayan səbəblərdən 1941-1945-ci illər müharibəsində nefti ilə də döyüşən Bakımız diqqətdən kənarda qaldı. Sovet dövründə bir çox şəhərlərə "Qəhrəman şəhər" adı verilsə də paytaxtımıza bu ad qıyılmadı. Ancaq qoca tarix heç nəyi və heç kimi unutmur. Elə Bakımızın qəhrəmanlığını Sovet təyyarələrinin qanadında göylərə ucaldan Bakı neftinin də haqqı, qiyməti unudulmayacaq.

Faşist Almaniyasının lideri Adolf Hitlerin əsas hədəfi Bakının neft qaynaqlarını da ələ keçirmək idi. O, Azərbaycan paytaxtını ələ keçirməklə Uzaq Şərqə doğru qoşunlarının yanacaq ehtiyacını həll etməyi planlaşdırırdı. Ovaxtkı Almaniyanın Xarici Siyasət Şöbəsinin müdiri Alfred Rozenberq Bakının üçüncü reyxin nəzarəti altına keçməsi üçün "Qafqazın idarə edilməsi" planı hazırlamışdı. Həmin plan üzrə Bakı 1942-ci il sentyabrın 25-dək ələ keçirilməli idi.

Adolf Hitler 1941-ci ilin martında Bakı neftinin istehsalının, təmizlənməsinin və nəqlinin Kontinental Neft Cəmiyyəti tərəfindən idarə edilməsi barədə təlimat vermişdi. Faşistlər Bakının böyük bir hərbi obyektə çevrilməyini planlaşdırırdı.

Amerikalı məşhur alimlər Maykl Ekonomides və Ronald Olini yazırdı ki, 1941-ci il iyunun 22-də alman qoşunları 930 millik cəbhə boyunca Sovet İttifaqına hücum etdi. Adolf Hitler ümumi və konkret vəzifələrini olduqca aydın şəkildə açıqlamışdı: "Hücumun son məqsədi Bakının neft mədənlərinə yol tapmaqdır".

Adolf Hitler başqa çıxışında belə demişdi: "Biz Bakının neftinə sahibləncəyik və bununla da Sovet İttifaqının təyyarələrini və tanklarını hərəkətsiz dəmir oyuncaqlara çevirəcəyik".

Həmin illərdə Azərbaycanla Şimali Qafqaz arasında, eləcə də Bakı ətrafında səngərlər qazılmışdı. Bu, Azərbaycanın, o cümlədən Bakının faşistlərə qarşı döyüşməsi üçün hazırlıq idi.

Paytaxt Bakı başda olmaqla Azərbaycan əhalisinin bütün təbəqələri, o cümlədən fəhlə, ziyalı insanları arxa cəbhədə faşizmin məğlubiyyəti üçün gecə-gündüz işləyirdi.

1942-ci ilin iyulun 23-də Hitler Qafqazla bağlı "Edelveys" kod adı altında strateji bir əməliyyatın həyata keçirilməsinə dair 45 nömrəli direktiv imzalamışdı. Bu plana əsasən, Qafqazın əsas neft rayonları - Bakı, Maykop, Qroznı işğal edilməli, Vermaxt həmin ərazilərin nefti hesabına şiddətli ehtiyac duyduğu yanacaq ilə təmin olunmalı idi.

Hitlerin məqsədi Almaniya üçün təkcə SSRİ-ni resurslardan məhrum etmək deyil, onlardan dərhal istifadə etmək də son dərəcə vacib idi.

SSRİ-nin müttəfiqləri – Böyük Britaniya və ABŞ tərəfindən "Vilvet" adlı oxşar plan hazırlanmışdı.

Məlumatlara əsasən, 1942-43-cü illərdə faşist Almaniyasının hava qüvvələrinin Bakıya 74 dəfə hücum cəhdlərinin qarşısı alınmışdı.

Həmin dövrdə Azərbaycan paytaxtında neft sənayesində çalışan işçilərin 40 faizi qadınlar idi. Müharibə dövründə SSRİ-də bütün neft istehsalının 71,4 faizini, aviasiya benzininin 80 faizini, nafta və kerosinin 90 faizini, avtomobil və sənaye yağlarının 96 faizini Bakı təmin edib.

Şəhərdə avtomobil zavodu tikilmiş və "Katyuşa" (reaktiv yaylım atəş sistemi), "Yak-3", "R-39 Airacobra" və "UTI-4" qırıcı təyyarələri, "Şpaqin" pulemyotları kimi 130-dan çox silah növü istehsal olunub.

Dövlət Müdafiə Komitəsinin 1942-ci il aprelin 5-i tarixli fərmanına əsasən may ayında Bakı Hava Müdafiə Korpusu Dairəsi yenidən təşkil olunmuş, nəticədə Bakı Hava Müdafiə Ordusu yaradılmışdı.

1942-ci ilin sentyabrında hərbi vəziyyət elan edildikdən sonra Bakı müdafiə zonası qurulmuşdu.

İkinci Dünya müharibəsi illərində Azərbaycandan cəbhəyə 700 minə yaxın döyüşçü göndərilmişdi. Onlardan 350 mindən çoxu həlak oldu və itkin düşdü. 80-cı illiyi qeyd olunan qələbənin qazanılmasında Azərbaycanın övladları çoxsaylı igidliklər göstərib və adlarını hərb tarixinə müharibə qəhrəmanları kimi yazdırıblar. Müharibədə 121 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına, 34 nəfər "Slava" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdü. Minlərlə soydaşımız SSRİ-nin digər orden və medalları ilə təltif olunub.

Bakı nefti və insanları ilə faşist Almaniyasına qarşı döyüşsə də, Azərbaycan paytaxtına "Qəhrəman şəhər" statusu verilməyib. Keçmiş SSRİ-nin 12 şəhərinə Moskva, Leninqrad, Odessa, Sevastopol, Volqoqrad, Kiyev, Kerç, Novorossiysk, Minsk, Tula, Murmansk, Smolensk və Brest qalasına (Belarus) "qəhrəman" adı verilib.

*"Polis"*

# Tarixin ilk qanunları

## Günümüzdə bəziləri hələ də öz aktuallığını saxlayır

Qanunlar cəmiyyətlərin nizamını və ədalətini təmin edən əsas sütunlardır. Tarix boyunca müxtəlif sivilizasiyalar öz hüquq sistemlərini quraraq, cəmiyyətin sabitliyini və ədalətini qorumağa çalışmışlar. Gəlin bu qədim qanunlara və onların cəmiyyətlərə təsirinə nəzər salaq:

### Ur-Nammu Qanunları (e.ə. 2100-cü illər) - Ən qədim qanun toplusu

Mesopotamiyanın Ur şəhərində hökmranlıq edən Ur-Nammu tərəfindən tərtib edilmiş bu qanunlar, indiyə qədər tapılmış ən qədim yazılı qanun toplusudur. Şumer dilində yazılmış bu qanunlar, cinayət və cəza arasında əlaqəni "əgər... onda..." formatında təqdim edirdi. Məsələn, əgər bir şəxs digərinə bədən xəsarəti yetirərsə, müəyyən miqdarda pul cəzası ödəməli idi. Bu, sonralar Babil qanunlarında rast gələnən "gözə-göz" prinsipindən fərqli olaraq daha humanist bir yanaşma idi.

### Lipit-İştar Qanunları (e.ə. 1930-cu illər) - Sosial ədalətin təşəbbüsü

İsin şəhərinin hökmdarı Lipit-İştar tərəfindən tərtib edilmiş bu qanunlar sosial münasibətləri və hüquqi məsələləri əhatə edirdi. Qanunlar, yalançı şahidlik edən şəxslərin öz ittiham etdikləri cəzanı alacağını müəyyən edirdi. Bu, ədalətin təminində şahidliyin əhəmiyyətini vurğulayırdı.

### Hammurabi Qanunları (e.ə. 1754-cü il) - "Gözə-göz" ədaləti

Babil hökmdarı Hammurabi tərəfindən tərtib edilmiş bu qanunlar 282 maddədən ibarət idi və cəmiyyətin müxtəlif sahələrini əhatə edirdi. Qanunlar "gözə-göz, dişə-diş" prinsipinə əsaslanırdı və cəza ilə cinayət arasında birbaşa əlaqə qururdu. Bu qanunlar, eyni zamanda, günahsızlıq prezumpsiyası prinsipini də ehtiva edirdi, yəni bir şəxs günahı sübuta yetirilməyincə günahsız sayılırdı.

### Eşnunna Qanunları (e.ə. 1930-cu illər) - İqtisadi və sosial münasibətlərin tənzimi

Eşnunna şəhərində tapılmış bu qanunlar iqtisadi və sosial münasibətləri tənzimləyirdi. Qanunlar, oğurluq, borc, evlilik və digər məsələləri əhatə edirdi. Bu, cəmiyyətin gündəlik həyatında hüququn rolunu göstərirdi.

### Gortin Qanunları (e.ə. V əsr) - Yunan hüquq sisteminin nümunəsi

Kreta adasındakı Gortin şəhərində tapılmış bu qanunlar qədim Yunan hüquq sisteminin nümunəsidir. Qanunlar, ailə hüququ, mülkiyyət və cəza hüququ sahələrini əhatə edirdi. Bu, hüququn cəmiyyətin müxtəlif sahələrinə necə tətbiq olunduğunu göstərirdi.

Tarixdə tətbiq olunan bu ilk qanunlar cəmiyyətlərin hüquq sistemlərinin təməlini qoymuş və ədalətin təminində mühüm rol oynamışdır. Onlar cəmiyyətin nizamını qorumaq, fərdlər arasında ədaləti tənzimləmək və hüququn üstünlüyünü təmin etmək məqsədi daşıyırdı. Bu gün də bu qədim qanunların prinsipləri müasir hüquq sistemlərində əksini tapmaqdadır.

# Dubay Hava Limanında ilk...

## Dünyanın ilk süni intellekt dəhlizi burada açılıb

Dubay Beynəlxalq Hava Limanında dünyada ilk süni intellekt texnologiyalar bazasında işləyən dəhlizi istifadəyə verib. AI sistemi eyni vaxtda on nəfərə qədər insana xidmət göstərəcək. Sistem fiziki olaraq sərnişinləri nəzarət məntəqələrinə gəlməmişdən əvvəl tanıya bilir. Dubayın Rezidentlik və Xaricilərlə İş üzrə Baş İdarəsinin (GDRFA) baş direktoru general-leytenant Məhəmməd Əhməd Əl Marri bildirib ki, AI dəhlizi prosedurların həyata keçirilməsini sürətləndirir və hava limanının buraxılış qabiliyyətini ikiqat artırır.

Sistem şübhəli pasportları birbaşa müvafiq şöbənin ekspertlərinə yönləndirməklə pozuntuları da aşkar edir.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik